Ədəbiyyat qəzeti

8 may / 2021

Ramiz Rövşən



# Darıxan şeirlərin şairi

Böyük Amerika yazıçısı Folkner əsl şairlik yaşının iyirmi altıda bitdiyini deyirdi. O hesabla, 85 yaşında dünyadan gedən gözəl şairimiz Fikrət Qocanın bir neçə şair ömrü yaşadığını demək olar. Bu ömürlərin qazancı onun yazdığı şeirlər və o şeirlərin gətirdiyi böyük oxucu sevgisi, balaları və nəvələriydisə, itkiləri də az deyildi; əvvəl ata-ana, sonda da qardaş və oğul itkisi. Bir də, bu uzun şair ömrünün az qala ortasında, səksəninci illərdə baş verən daha bir ağrılı itki - səs itkisi.

Görkəmli rus şairi M.Voloşin hələ keçən əsrin əvvəlində yazırdı ki, əsl şairləri bir-birindən fərqləndirən əsas cəhətlərdən biri də onların səsi, intonasiyasıdı.

Azı yarım əsr bundan əvvəl, sərt Stalin rejimindən sonra bir balaca azadlığın havasını dadmış o uzaq və gözəl altmışıncı illərdə, keçmiş SSRİ-nin hər yerində olduğu kimi Azərbaycanda da səhnələrə çıxıb gur səsiylə şeir deyən şairlərin minlərlə oxucuların qəlbini, şüurunu fəth elədiyi bir vaxtda, Moskvadakı Maksim Qorki adına Ədəbiyyat İnstitutunu təzəcə bitirib qayıtmış cavan Fikrət Qocanın necə şeir deməsi çoxlarından fərqliydi. Fikrət şeri çox ucadan yox, çox dərindən, pafossuz-filansız deyirdi. Və onun dediyi o gözəl şeirlərin ən çox seviləni "Vals" idi.

*Göy-yer fırlanır.*
*Ürəyimdə bir*
*şeir fırlanır.*
*Deyir, məni yaz.*
*Deyirəm, olmaz.*
*Fırlanırıq, vals, vals...*

Fikrət o şeiri dedikcə, sanki səslənən sözlər, misralar da bir-birilə rəqs eləyirdi. Və belə bir şair birdən-birə öz səsini itirdi. Səksəninci illərdə bir cərrahiyyə əməliyyatından sonra, ümidsiz xəstəlikdən sağalıb özü həyata qayıtsa da səsi batdı. O vaxtdan bəri, bu illər uzunu onun ürəyindəki o gözəl şeirlərin sinə dolusu səslənməkdən ötrü necə darıxdığını duymaq çətin deyil. Və o şeirlərin darıxması yəqin, eyni taleyi yaşayan gözəl müğənnimiz Akif İslamzadənin ürəyindəki mahnıların darıxmasından heç də asan deyildi.

Daha darıxma, əzizim Fikrət, rahat və arxayın yat. Sənin o gözəl şeirlərin nəsil-nəsil oxucuların dilində həmişə səslənəcək.